Ədəbiyyat QƏZETİ 6 iyul 2024-cü il 

# İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Siluet" tamaşasına ictimai baxış oldu






İyul ayının 4-də İrəvan Dövlət Azərbaycan Dram Teatrında Azərbaycan Yazıçılar İttifaqının üzvü, şair-dramaturq, tərcüməçi, ictimai xadim İmir Məmmədlinin "Qadın" pyesi əsasında Əməkdar mədəniyyət işçisi İftixarın "Siluet" tamaşasına ictimai baxış keçirildi.

Tədbiri İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, İftixar Piriyev açaraq teatrın kollektivini və dəvət olunan qonaqları salamladı. Psixoloji, mistik, qroteskvari, qeyri-səlis məntiqlə birhissəli uydurma janrında hazırlanan əsərin nümayişindən sonra İftixar tamaşanın müzakirəsi üçün ilk sözü müəllifə verdi.

İmir Məmmədli pyesin uğurlu səhnə təcəssümü münasibəti ilə tamaşanın rejissoru İftixarı, aktyor heyətini gözəl tamaşa təqdim etmələri münasibəti ilə təbrik etdi və tamaşanın rejissor tamaşası olduğunu diqqətə çatdırdı.

Müzakirəyə dəvət olunan istedadlı teatr rejissoru, İrəvan Azərbaycan teatrında bir neçə tamaşası ilə tanınan, hazırda Hidayətin "İrəvanda yanan çıraq" pyesi üzərində işləyən Gümrah Ömər tamaşanın müasir teatr düşüncəsi üçün yeni sistem olmasını, əsərdəki mövzunun həyatın özünü əks etdirdiyini, həmçinin obrazların daxili təbəddülatlarının bizlərdən hər birimizə aid edilə bilməsinə münasibət bildirdi.

Tədbirdə Mədəniyyət Nazirliyi İncəsənət şöbəsinin Teatr sektorunun rəhbəri Böyükxanım Talıbova Lütfizadənin "Qeyri-səlis məntiq nəzəriyyəsi" müstəvisində yeni teatr sistemi ilə hazırlanan tamaşanı, rejissor traktovkasını və gənc aktrisaların plastik oyunlarını çox bəyəndiyini, İrəvan teatrının istedadlı, əzmkar, fədakar kollektivinin illər boyu çətin şəraitdə peşəkar səviyyədə tamaşalar hazırladığını; "Teatra teatrı sevən adam rəhbərlik edərsə, onda tamaşalar da belə keyfiyyətli alınar" fikrini diqqətə çatdırdı. İrəvan Azərbaycan teatrının binasının təmirinin tamamlanmasının nazirliyin diqqətində olmasını, yaxın zamanlarda teatrın inzibati binasında təmir işlərinin yekunlaşacağına ümidli olduğunu söylədi və bu teatrın heç bir aktyorunun şəraitsizlikdən nazirliyə şikayət etmədiklərini, öz peşələrinə və teatrın rəhbərliyinə sədaqətini xüsusilə qeyd etdi.

Tamaşanın məziyyətləri barədə aktyor və rejissor Elvin Mirzəyev fikir və təbriklərini çatdırdı.

Bədii şuranın sədr müavini, teatrın ədəbi hissə müdiri, teatrşünas Nərminə Ağayeva tamaşanın teatr sənətimizdə qeyri-səlis məntiq sistemi ilə yaradılan ilk sənət nümunəsi olduğuna, İftixarın "Qeyri-səlis məntiq nəzəriyyəsinin teatr sənətinə sinergetik adaptasiyası" adlı doktorluq dissertasiyasının nəzəri semantikasının tamaşa kontekstində yeni istiqamətlərinin, yeni paradiqmalarının parlaq nümayişini kollektivin böyük uğuru kimi dəyərləndirdi.

Əməkdar artist, Prezident mükafatçısı Esmiralda Şahbazova, aktyor Azər Axşam, Qərbi Azərbaycan icmasının nümayəndələri də tamaşa haqqında müsbət rəylərini bildirdilər. İftixar Piriyev Qərbi Azərbaycan icmasının nümayəndələri içərisində dramaturgiya ilə məşğul olan yazıçıları irəvanlıların doğma sənət ocağı İrəvan teatrına yeni pyesləri ilə müraciət etməyə dəvət etdi.